# Con E. Vuds: Ağqoyunlu – Tayfa, Konfederasiya, İmperiya

written by John E. Woods Jon Vuds

*Sovet dövründə Azərbaycan cəmiyyətini, xüsusilə də ziyalıları milli tarixin saxtalaşdırılması ciddi narahat edirdi. Düşünmək olardı ki, müstəqillik əldə etdikdən sonra tarixçilərimiz saxtalaşdırılmış tariximizə yeni baxış formalaşdıracaqlar. Təəssüf ki, otuz ildən artıq müstəqillik dövründə Azərbaycanın qədim və orta əsr tarixinə dair suallara mükəmməl cavab tapmaq mümkün olmamışdır, əksinə tarixin müxtəlif istiqamətlərdə saxtalaşdırılması davam etmişdir. Bunun bir sıra ciddi səbəbləri var; bu səbəblərdən biri tarixi problemləri araşdırmağa qadir mütəxəssislərin olmamasıdır. Müasir Azərbaycan Respublikasının ərazisi tarixin müxtəlif mərhələlərində müxtəlif dövlət və imperiyaların tərkib hissəsi olub. Məhz bu səbəbdən Azərbaycan tarixini təkcə milli tarixçilər deyil, dünya tarixşünaslığı da araşdırıb. Müasir Azərbaycan tarixşünaslığında cavabsız qalmış bir sıra suallara dünya tarixşünaslığında cavab tapmaq olar. Bu məqsədlə Azərbaycan tarixinə aid tədqiqatların silsilə tərcüməsini oxuculara təqdim etmək qərarına gəldik.*

*İlk seçimimiz Azərbaycan xalqının milli qürur yeri hesab edilən Səfəvi dövlətinin sosial-siyasi bazasının əsası hesab edilən Ağqoyunlu dövləti oldu. Ağqoyunlu dövlətinin tarixinə aid ilk və hələlik yeganə fundamental tədqiqat işi amerikalı tarixçi Con Vudsa məxsusdur. Əsər ilk dəfə 1974-cü ildə doktorluq dissertasiyası kimi Prinston Universitetinin Yaxın Şərq Tədqiqatları şöbəsinə təqdim edilmşdir. Bu əsəri yazarkən tarixçi fars, ərəb və türk dillərində minə yaxın yazılı mənbələrdən stifadə etmiş, Ağqoyunlu dövlətinin sosial-siyasi strukturunu, mədəni çiçəklənməsi və süqutunu şərtləndirən*

*amilləri təhlil etmişdir.*

*Qeyd edək ki, oxuculara burada kitabın Yuta universiteti nəşriyyatının çap etdiyi yenilənmiş və genişləndirilmiş ikinci nəşrinin tərcüməsi təqdim olunur. Bakı Araşdırmalar İnstitutu bu tərcüməni həm müəllifin, həm Yuta universiteti nəşriyyatının icazəsi ilə yayır.*

*Tarix Elmləri Doktoru Şəlalə Məmmədova*

## I

## ***Mövzular və strukturlar***

### Son orta əsrlər dövrü

XIV/VIII əsrin ortalarında[i] Çingizi Monqol hakimiyyətinin süquta uğramasından başlayaraq XVI/X əsrin əvvəllərində Osmanlı, Səfəvi, Moğol və Özbək imperiyalarının dirçəldiyi dövrə qədər, yəni orta əsrlərin son dövrü ərzində Mərkəzi İslam torpaqlarında baş vermiş İran-Türk mədəniyyəti tarixinin bir çox fundamental aspektləri hələ də naməlumdur. Bu sahədə ilk tədqiqatlar aparmış Mükrimin Xəlil İnanc, Vladimir Minorski, Volter Hinz və onların tədqiqatlarını zənginləşdirmiş İ.P.Petruşevski, Klaud Kahen, Osman Turan, Faruk Sümər, Cin Aubin, H.R.Roymer, Mişel Mazaoui, Yaşar Yücəl və digər müasir alimlərin tədqiqatlarına baxmayaraq, vəziyyət hələ də dəyişilməz qalır. Tədqiqat əsərlərinin bu dövrün tarixi problemlərinin həlli üçün kifayət etməməsi siyasi cəhətdən həddən artıq dağınıq olan dövrün xüsusiyyətləri və "fraksiya hökmdarlarının" (*muluk əl-tava'if*) üstünlük təşkil

etməsi ilə izah olunur. Bu vəziyyət birmənalı şəkildə XIV-XV/VIII-IX əsrlərdə Şərqi Anadolu və İranın əksər hissəsinin tarixinin qeyri-müntəzəm sənədləşdirilməsinə təsir göstərmişdi. Monqol Elxanilərin kosmopolitan dünyabaxışının abidəsi, həmçinin fars islam tarixşünaslığının ən görkəmli əsərlərindən olan bəşəri tarixin əks olunduğu *Cami ət-Təvarix*in müəllifi Rəşidəddinin (öl.1318/718) varisi yalnız XV/VIII əsrdə Hafiz Əbrunun (öl.1430/833) simasında meydana gələ bildi.

Aralıq dövründə Elxani dövlətinin varisləri tərəfindən bir sıra yerli salnamələr yaradılsa da, onların əksəriyyəti Rəşiddədin və Hafiz Əbrunun əsərlərinin bir hissəsi də daxil olmaqla nəşr edilməmiş qalır (əlavə D-yə bax). Lakin Təbrizdən Konyaya qədər heç kimə məxsus olmayan ərazilərdə hətta az sayda olan yerli salnamələr də məhdud şəkildədirlər. Bu isə həmin ərazilərdə baş vermiş siyasi hadisələrin xronikasının bərpasının olduqca çətin olduğu anlamına gəlir. Bu ərazidəki sosial və iqtisadi vəziyyət haqqında olan mənbələrə isə nadir hallarda rast gəlinir.




**Xəritə 1. Mərkəzi İslam torpaqları XIV/VIII əsrin ikinci yarısında**

Buna baxmayaraq indiyə qədər əldə edilmiş və tədqiq olunmuş materiallar həmin dövrün tarixində bir sıra ümumi istiqamətlərin müəyyənləşdirilməsinə imkan verir. Bu əsərlərdə monqolların İslam sivilizasiyasına göstərdikləri təsirin dəqiq təbiəti haqqında yekdil fikir formalaşmasa da, onların əksəriyyəti monqolların İslamın mərkəzi torpaqlarının işğallarını bu ərazilərin tənəzzülünün başlanğıcı hesab edirlər. Dünya tarixindəki bu mühüm hadisənin az mübahisəli hesab edilən nəticələrindən biri Mərkəzi Asiyadan İran, İraq, Suriya, Anadolu və Cənubi Rusiyaya monqol işğalları və monqolların şərqi türk müttəfiqləri də daxil olmaqla böyük miqyasda köçəri xalqların axını, həmçinin Çingiz xan və varislərinin yürüşləri nəticəsində çoxlu sayda türkmənlərin yerdəyişməsi olmuşdur. Bu demoqrafik dəyişiklik bir çox əkin sahələrinin yenidən otlaqlara çevrilməsi və nəticə etibarilə

işğal olunmuş ərazilərdə çiçəklənən əkinçiliyin tənəzzülü ilə nəticələnmişdir. Bu dəyişiklik öz növbəsində şəhər mərkəzlərinin iqtisadi həyatına da mənfi təsir göstərmiş, işğal olunmuş ərazilərin oturaq əhalisi ilə onların köçəri başçıları arasında ziddiyyəti gücləndirmişdi.[ii]

Buna baxmayaraq, bu ərazilər iqtisadi cəhətdən nisbətən sürətlə bərpa olunmuş, sosial gərginliyin bir hissəsi sonrakı dövrlərdə həll olunmuş, monqol işğallarından sonra Mərkəzi İslam torpaqlarının böyük hissəsində formalaşmış cəmiyyətin ikili xarakteri möhkəm şəkildə qorunub saxlanılmışdı. Bu vəziyyət XIV-XV/VIII-IX əsrlərdə bir sıra sahələrdə "qapalı" köçəri elementlərin gücləndiyi İran platosuna xüsusilə uyğun gəlirdi. Minorskinin ilkin mülahizələrini inkişaf etdirən Sümər diqqəti 1335/736-cı ildən sonra Anadoludan şərqə doğru irəliləyən monqol Oyrat, Cəlairi və Sulduzlara əlavə olaraq XV-XVI/IX-X əsrlərdə İrandan keçərək Anadoluya axın etmiş, Qaraqoyunlu, Ağqoyunlu və Səfəvi qızılbaşları formalaşdıran üç türkmən "dalğasına" yönəldir.[iii] Bir qədər sonrakı dövrə təsadüf edən bu demoqrafik dəyişikliklər Mərkəzi Asiyadan başlamış erkən türk və monqol işğalları dövründə İslam torpaqlarında baş vermiş dəyişikliklərdən fərqlənirdi. Bu dəfə köçəri tayfalar İslam torpaqlarında yerli əhalinin tamamilə yeni xalqlar tərəfindən sıxışdırılmasından fərqli olaraq artıq mövcud olan elementlərin yerdəyişməsi və qruplaşmasında iştirak edib yeni siyasi birliyin yaradılmasına müvəffəq olmuşdular.

Bu dövrün birinci ilə bağlı olmayan ikinci mühüm xüsusiyyətlərindən biri islami və psevdo-islami xalq dini təşkilatarının, xüsusilə də Anadoludakı Baba-yi-Bekdaşi, Xorasan və Mazandarandakı Sərbədarlar, Xorasan, Azərbaycan*, Suriya və Anadoludakı hürufilər, Qərbi Anadoludakı Şeyx Bədrəddin, Kürdistandakı Əhli-Həqq, Xuzistan və İraqın cənubundakı Muşaşa, Azərbaycandakı Səfəviyyə kimi bir qism hərbi məsihi hərəkatların davamlı inkişaf edərək yayılması idi.[iv] Bu şəhər, əyalət, tayfa fenomenində istismar edən köçəri hərbi elita ilə istismar olunan oturaq aşağı təbəqə

arasındakı sinfi mübarizənin, açıq monqol cəmiyyəti, şamanizm, çoxşaxəli hərbi Nizari-İsmaililiyin dirçəlməsi, *futuva* nəzəriyyəsi ilə xalq dininin birləşməsi, Sührəvərdinin (öl.1191/587) İşraqilik mülahizələrinin və İbn əl-Ərəbinin (öl.1240/638) radikal humanizminin yayılması nəticəsində intellektual biliyin inkişafının da daxil olduğu bir çox elementləri görmək olar. Lakin onların heç biri problemin həlli üçün kifayət qədər mükəmməl əlac deyildi.[v] Elxani dövlətində ən yüksək səviyyədə çiçəklənən İmami şiəliyi ilə paralel yayılmış bu xalq hərəkatlarının əksəriyyətinə ifrat Əlilik konsepsiyasının təsiri o qədər güclü idi ki, o dövrdə hətta sünnilərin içərisində belə ən məşhur dini istiqamətlərin şiəlik və əlilik olduğunu söyləsək yanılmarıq. Bu dini qarışıqlığı Səfəvilərin yüksəlişinə qədər Mərkəzi İslam torpaqlarının həyatının müxtəlif aspektlərində hiss etmək mümkün idi. Bunun üçün cəmi bir misal gətirmək kifayətdir. Teymuri hökmdarı Əbül Qasım Baburun (öl.1457/861) sikkələrinin bəzilərinin bir tərəfi Şiə, digər tərəfi isə Sünni şüarına malik idi.[vi]

1258/656-cı ildə bəşər tərəfindən qəbul edilmiş sonuncu Abbasi xəlifəsi əl-Müstəsimin bütpərəst monqollar tərəfindən öldürülməsindən sonra yaranmış bir sıra dini-siyasi problemlər bu cür sosial, iqtisadi və mədəni dəyişikliklərlə sıx əlaqəli idi. M.Molenin fikrincə, Bağdad Abbasilərinin süqutu sünni camaatının siyasi hakimiyyətinin son izlərini yox edərək, imamilik və xalq dininin yüksəlişi üçün əlverişli şərait yaratmışdı.[vii] Xüsusilə də əl-Müstəsimin ölümü monqollardan əvvəlki dövrdə xəlifələri və müsəlman sərkərdələri gücləndirən və siyasi cəhətdən qanuni edən hüquqi mexanizmin məhv edilməsinə səbəb oldu. Bu hüquqi mexanizm hüquq üzrə mütəxəssis əl-Qəzali (öl.1111/505) tərəfindən olduqca mükəmməl təsvir edilmişdi:

*…biz hesab edirik ki, xilafətin fəaliyyəti Abbasi xanədanının səlahiyyət verdiyi şəxsin razılığı ilə icra olunur, müxtəlif torpaqlardakı hakimiyyətin fəaliyyəti isə xilafətə sədaqət andı içmiş sultanlar tərəfindən icra edilir. Bu günlərdə*

*hakimiyyət sadəcə olaraq hərbi qüvvənin nəticəsidir və hərbi gücə malik hər hansı bir kəs kimə sədaqət nümayiş etdirirsə, o da xəlifə olur.*[viii]

Bunun nəticəsi olaraq, 1258/656-cı ildən sonra sünni camaatının əksəriyyəti hakimiyyəti əvvəllərdə olduğu kimi xəlifə tərəfindən təsdiqlənən legitimliyə malik olmayan, Şəriət qanununu dəstəkləməsi şəxsiyyəti bu qanundan öndə gedən xəlifəyə sədaqət əhdi ilə təsdiq olunmayan hərbi diktatorlar tərəfindən idarə olunurdu. Nəticədə, monqollardan sonrakı dövrdə hakimiyyətə gəlmiş hərbi sərkərdələrin əksəriyyəti öz rejimlərini gücləndirmək və hakimiyyətlərini qanuniləşdirmək üçün hakimiyyət və legitimliyin müxtəlif müqəddəs formalarından istifadə etməli olurdular.

Struktur olaraq bu dəyişiklik hakimiyyət və legitimliyin I təsvirdəki kimi üç modelində əks olunmuşdur. Xilafətin klassik nəzəriyyəsi peyğəmbəri və xəlifi olmaqla birinci iki diaqramda təsvir edilib. İslami peyğəmbəri modeldə peyğəmbər öz ardıcıllarına Yaradanla yaradılanlar arasında, Allahla bəşəriyyət arasında müqəddəs razılığı təcəssüm etdirən bağı xatırlatmaq üçün Allah tərəfindən seçilmiş insandır (Quran 6:172)[ix]: “Rəbbiniz Adəm övladlarının belindən dörd nəsil götürərək onları bir-birlərinə şahid gətirdi. O soruşdu: “Mən sizin Rəbbiniz deyiləm?” Onlar cavab verdilər: “Biz şahidlik edirik ki, Rəbbimizsən”. Məhz buna görə də Məhəmməd peyğəmbər bu əhdlə öz ardıcıllarını nazil olan kitabda əks olunan Müqəddəs Qanuna və öz sözləri, rəftar və davranışı ilə yaradılmış normalara uyğun olaraq yer üzündə şəksiz mövcud olan ilahi sosio-siyasi qaydanı dərk etməyə çağırır. Bundan sonra peyğəmbər bu icmanın özündə bu dünyəvi icmanın – ümmət və ya camaatın əbədiləşdirilməsi üçün qanun və məsuliyyəti müəyyənləşdirdi: “Mənim icmam heç bir zaman səhv üzərində birləşməyəcək, əgər hər hansı bir narazılıq görəcəksinizsə, çoxluğun tərəfində olmalısınız”.[x]




**Təsvir 1. Hakimiyyət və legitimliyin peyğəmbəri, xəlifi və sakral modelləri**

Peyğəmbərlik Məhəmməd və onun varislərinin və ya dünyəvi aləmdə onun özü tərəfindən *ümmət*in idarə edilməsi üçün səlahiyyət verdiyi xəlifələrin ölümündən sonra başa çatır. Onlar Qurandakı (4:59) "Hakimiyyət surəsi" ilə hakimiyyətdə olanlar (*ulu əl-əmr*) idilər: "Ey iman gətirənlər, Allaha, peyğəmbərə və öz aranızda səlahiyyət sahibi olanlara itaət edin." Bundan başqa nəzəriyyədə *ümmət* seçilmiş və ya sələfləri tərəfindən təyin olunmuş xəlifənin taxta çıxmasını təsdiqləyir və beləliklə, simvolik olaraq ona sədaqətini vəd edirdi. Xəlifələr isə sadəcə olaraq Müqəddəs Qanunu müdafiə və tətbiq etmək səlahiyyətinə malik idilər və dünyəvi icma olaraq *ümmətə* aid inzibati, maliyyə, hərbi və hüquqi funksiyaları icra edirdilər. İslam dövləti inkişaf etdikcə, xəlifələr bu funksiyalardan bəzilərini vəzirlərə, sərkərdələrə və hakimlərə həvalə edirdilər. Lakin ən yüksək hakimiyyət mənbəyi Allah, *məlik əl-mülk* (hakimiyyətin sahibi) olsa da, nəzəri cəhətdən icma xəlifənin hakimiyyət əldə etdiyi dünyəvi legitimliyin mənbəyini təşkil edirdi. "Hərbi güc sahibləri" olan əmir və sultanlar sonunda bütün hakimiyyəti zəbt etdikdən

sonra qəsbkarlıqlarının xəlifə tərəfindən tanınmasına çalışır və bununla da xəlifə səlahiyyətlərinin hüquqi tərəfini möhkəmləndirmiş olurdular.

Peyğəmbəri-xəlifi baxışların əksinə olaraq, idarəetmənin sakral modeli şah və ya dünyəvi hökmdarın (*sultan, padşah*) birbaşa Allah tərəfindən seçildiyini iddia edirdi. Allah bu hökmdarı bütün insanlardan üstün tutaraq, onu bəşəri hakimiyyət (*ta'yid-i ilahi*, "ilahi dəstək", *farr, qut, uğur*) üçün xarizma ilə təmin edərək yer üzündə hakimiyyətin qoruyucusu etmişdi. Allah və şah paralel fəaliyyət göstərirlər: Allah şah tərəfindən dünyaya hökm edir, şah cəmiyyəti şahlıq keyfiyyəti olan ağıl, müdriklik və ən başlıcası isə doğru qanunlar və müvafiq inzibati təcrübə ilə təcəssüm olunan ədalətlə idarə edir. Beləliklə də ədalətli şah xaos və sosial qayda-qanunun pozulmasının qarşısını alan özəyə çevrilir və sivilizasiyanın irriqasiya, əkinçilik, şəhərsalma, maliyyə və təhsilinə məsul olan təmsilçisi kimi fəaliyyət göstərir. Bəziləri hətta iddia edirdilər ki, taxıl və heyvanlara məhsuldarlıq verən də şahdır.[xi] Bu hakimiyyət səlahiyyətini (*dövlət*, "xoşbəxtlik, tale") qorumaq üçün şah nəinki bu prinsiplərlə idarə etməli və zülmə qarşı mübarizə aparmalıdır, həm də Allahın qanunlarına itaət etməlidir. Əgər o, bunu etməsə, Allah öz qamçısı ilə onu devirər və dairə yenidən təkrarlanar. Bu nəzəriyyə əsasən siyasi hakimiyyət mülahizələri ilə bağlı olsa da, Allah tərəfindən verilmiş xüsusi atributlara inam, lütf konsepsiyasına əsasən, sufilik və şiəliyin də xarakterik xüsusiyyəti idi və məhz buna görə də hər iki istiqamət bu modelin tərkib hissəsi kimi qəbul edilməlidir. Bu uyğunluq bu fəslin əvvəlində qeyd edilən ideyalar qarışıqlığını anlamaq üçün mühüm əhəmiyyət kəsb edir.[xii]

Lakin bəzi ərazilərin xəlifi modelinə və Bağdad Abbasi xanədanlığına sədaqəti Abbasilərin süqutundan uzun müddət sonra da davam etmişdi. Məsələn, Hindistanda Dehli sultanı Cəlalədin Firuz Şah Xalcı (öl.1296/695) Bağdadın monqollar tərəfindən işğalından təxminən qırx il  sonra da əl-Müstəsimin

adı qeyd olunan sikkələr buraxdırırdı. Görünür, işğal olunmuş ərazilərdə sünni camaatının siyasi qurumunun bir çox üzvləri olduqca tez bir zamanda monqol hərbi elitası ilə əməkdaşlığa başlamış və beləliklə də cəmiyyətin öz ürəklərində bütpərəstlərin hökmranlığına qarşı mübarizəni davam etdirən təbəqələri üzərində təsirlərini itirmişdilər.[xiii] Bu mövqe ilə bağlı İbn əl-Tiqtaqa (1300/700) *Kitab əl-fəxri* əsərində bir rəvayət yazır:

Sultan Hülaki 656-cı ildə/1258 Bağdadı işğal edən zaman "*üləmalardan*" ədalətli bütpərəst, yoxsa ədalətsiz müsəlman sultanın yaxşı olması haqqında hüquqi qərar qəbul edilməsini istədi. Bu məsələ ilə bağlı "*üləmalar*" Mustansiriyada toplandılar. Lakin onlar qərar qəbul etdikdən sonra cavab verməyə cəsarət etmədilər. Bu görüşdə Rəşidəddin Əli ibn Tavus da iştirak edirdi, o, rəhbər və böyük hörmət sahibi idi. O, üləmaların qətiyyətsizliyini görərək ədalətsiz müsəlmanla müqayisədə ədalətli bütpərəstin üstün olması haqqında qərar verir və bu sənədi imzalayır. Ondan sonra digərləri də bu sənədi imzalayırlar.[xiv]

Sünni icması bundan az bəhrələnir, Məmlük sultanlarının taxta çıxmasına rəhbərlik etmək məqsədi ilə sonuncu xəlifənin ehtimal olunan varisinin Qahirəyə köçməsi və Qahirədəki "kölgədə qalmış xəlifələrin" hakimiyyəti İslam dünyasının uzaq bölgələrinin hökmdarları tərəfindən nadir hallarda tanınırdı, şəriət hüquqşünasları isə onları, ümumiyyətlə, tanımırdılar. Sünni icmasının hüquq üzrə mütəxəssisləri siyasi legitimliyin yeni nəzəriyyələrini yaratmağa cəhd göstərirdilər. İslam icmasının özü isə bütövlükdə yenidən şiəlik üçün mərkəzi problemlərdən biri – İmam və onun hakimiyyətinin mənşəyi, İmam və İmamət problemi ilə üz-üzə qalmış oldu.

Monqol işğalları nəticəsində meydana gəlmiş dövlətlərin bir qismində eyni zamanda siyasi hakimiyyət və dövlət quruculuğunun açıq şəkildə Çingiz xanın Böyük Yasası kimi köçəri adət və ənənələrinə söykəndiyi müşahidə edilirdi. Lakin XIV/VIII əsrin əvvəllərində İrandakı monqolların qəti şəkildə

islamı qəbul etməsi ilə sünni icmasının başsız qalmış dünyəvi dövlətinin Müqəddəs Qanununu keçici köçəri Çingizxanilərin dünyəvi imperiyasının konsepsiya və ideyaları ilə ayrılmaz tellərlə bağlayan maraqlı qarışığa malik legitim qaydalar meydana gəldi.[xv] Qarışıqlıq yaradan bu siyasi ənənəni Məhəmməd Naxçıvaninin *Dəstur əl-katib fi tayin əl-məratib* adlı əsərinin Çingizxani olmayan, Azərbaycan və İraqın hökmdarı, monqol Şeyx Üveys Cəlairiyə (öl.1374/775) həsr olunmuş giriş hissəsində aydın şəkildə görmək olar. Müəllif Cəlairiyə “Çingizxani dövləti ənənələrini dirçəldən… Peyğəmbərin Müqəddəs Qanununun şüarlarını unutmayan, Məhəmməd etiqadının odunu yandıran… Allahın, dünyanın Hökmdarının dəstəyi ilə tanınan” birisi olaraq müraciət edir.[xvi] Bununla Naxçıvani həm monqol və həm də islami dini-siyasi sistemə müraciət etmiş olur və görünür ki, burada heç bir ziddiyyət də görmür, beləliklə də Çingizxani olmayan, mövcudluğu Allah tərəfindən təqdis edildiyi güman olunan adi güclü monqolu və ya *qaraçını*[xvii] legitimləşdirir.

XIV/VIII əsrdə Monqol imperiya ənənələrindən tamamilə uzaqlaşmaq cəhdləri əsasən uğursuzluqla nəticələnir. Məsələn, Elxanilər dövründə İranın qərbində hakimiyyətin bölüşdürülməsi zamanı Cəlairilərin rəqiblərindən biri, Sulduz Çobani tayfasının başçısı təqribən 1343/744-cü ildə guya bir qrup tərəfdarlarına demişdir:

Çingiz xan xanədanının heç bir xarizması [*uğuru*] qalmamışdır. Siz şərəfli “Əşrəfi” (daha nəcib) son [islami] şahları [*müluk*, tək halda məlik] kimi qəbul etməli və parlaq qılıncınızın zərbəsi ilə şahlığa nəzarəti və icmanı ələ keçirməlisiniz.[xviii]

Məlik Əşrəf Sulduz (öl.1357/758) ilk başda onların sözlərinə uyğun rəftar etsə də, praqmatiklik nümayiş etdirərək on üç il zəbt etdiyi hakimiyyətini nominal qəhrəman olan Ənuşirvan Adilin simasında Çingiz xanın varisi (ke’ün) kimi qəribə ideya ilə gücləndirməyə can atırdı.[xix] Sonradan o, Rusiyanın cənub istiqamətindən irəliləyərək Azərbaycanı işğal etmiş və guya bu

ərazidə legitim monqol hakimiyyətini bərpa etmiş əsl Çingixani rəqib Cuçinin nəslindən olan Canıbəy xan tərəfindən öldürülür.

Təxminən həmin dövrdə İranın şərqindən Çingiz xan varisliyindən imtina etmək kimi başqa bir iddia gəlir. Xorasanda bir qrup tayfa başçısının Çingiz xanın qardaşının nəslindən olan Tağay Teymuru (öl.1353/754) ucaltmalarına baxmayaraq, Heratın mənşəcə monqol olmayan məliki Muizəddin Pir Hüseyin Məhəmməd Kart (öl.1370/771) 1343/744-cü ildən hakimiyyət titulu və nişanələri təqdim etməyə başlayır. 1349/750-ci ildə "din və şahlıq əkizdirlər" doktrinasını bərqərar etdikdən, "Hakimiyyət surəsi"ndən sitat gətirdikdən sonra o, özünü sultan elan edir və "kafirlərin natəmiz ağacının" (*şəcərə-ye xabisa-ye küfr*) və "kafirlərin adətlərinin" (*rusum-i kuffar*) yerində islamın Müqəddəs Qanununu (*Şəriəti*) bərpa edəcəyini bəyan edir.[xx] Bu məsələdə hədəfə alınanlar şübhəsiz ki, monqollar və Xorasanın Sərbədari hərəkatının şiə elementləri idi. Köçəri hərbi elitanın cavabı özünü çox gözlətmədi: 1351/752-ci ildə qonşu Mavərənnəhrin oyuncaq Çingizxanilərin Çagatay nəslindən olan sərkərdəsi Qazaqxan Qaraunas Pir Hüseyni paytaxtında mühasirəyə aldı. Deyilənə görə, Qazaqxan öz rəqibi haqqında "hansı soyu ilə o, hakimiyyətə iddia irəli sürə bilib?…Hansı əsasla tacik (iranlı, oturaq) hökmdar olmaq iddiasına düşüb?" deyib.[xxi] Pir Hüseyin məğlub edilir və siyasi hakimiyyətə iddiasından imtina etməyə məcbur edilir.

Bununla da köçəri legitimlik prinsipləri Teymuri və Qaraqoyunlular da daxil olmaqla monqolların sonrakı dövlətlərində hakimiyyət konsepsiyasına təsirini davam etdirir. Məsələn: Türk-monqol sərkərdələrinin ən uğurlusu sayılan rəsmi müsəlman işğalçısı, mənşəcə Çingizxani olmayan sadə insan Teymurləng və ya Teymur Barlas (öl.1405/807) belə Çingiz xanın qanunlarına uyğun olaraq Ugedey imperiyasının oyuncaq hökmdarlarının, Suyurqatmış və Sultan Mahmudun adından fəaliyyət göstərdiyini iddia edirdi. Bu iddia Teymurun sikkələrinin üzərindəki yazılarda və diplomatik şüarlarda aydın əks olunub.[xxii] Hətta Çingixani xarizması Şeyx Üveys

oğlu *qaraçı* Sultan Əhməd Cəlairi (öl.1410/813) üçün elə bir hakimiyyət legitimliyi yaratmışdı ki, türkmən Qara Yusif Qaraqoyunlu oğlu Pir Budağın gələcəkdə müstəqil hakimiyyətə iddialarını təmin etmək üçün Sultan Əhmədi vadar etmişdi ki, onu oğulluğa götürsün.[xxiii]

Lakin XV/IX əsrin birinci yarısında Anadolu və Azərbaycanda türkmən dövlətlərinin meydana gəlməsi və inkişafı ilə Çingizxani hakimiyyətinin nüfuzu türkmənlərin öz ənənələrinin kölgəsi altında əriyərək tədricən süquta uğramağa başlayır. Qara Osman Ağqoyunlu (öl.1435/839), Osmanlı sultanı II Murad (öl.1451/855) və Cahanşah Qaraqoyunlu (öl.1467/872) türk hakimiyyətinin şəcərə və digər simvollarını dəyişərək öz mənşələrini əfsanəvi Türk hökmdarı Oğuza bağlayırdılar (əlavə A-ya bax). Lakin Çingizxani ənənələrindən fərqli olaraq türkmənlərin Oğuz əfsanələrinin bəziləri güclü islami elementlərə malik idi. Bunlara təkallahlılığın qəbul edilməsi, bütpərəstlərə qarşı Müqəddəs müharibə daxil idi. Bu elementlər bəşəri köçəri ideologiyanın tədricən Müqəddəs Qanun ilə yaxınlaşmasına yol açırdı. Köçəri ideologiyanın XV/IX əsrin sonlarında islamlaşması ilə hökmdarın XIV/VIII əsrin ikinci yarısında sərkərdələrin etdikləri kimi özünü "Çingizxani dövlətinin təcəssümü" və "Müqəddəs Qanun bayrağının daşıyıcısı" kimi təqdim etməsi qeyri-mümkün olmağa başlayır.

Nəticədə, XV/IX əsr Marşal Hodgsonun iddia etdiyi kimi, siyasi cəhətdən heç də passiv bir dövr deyildi.[xxiv] Əslində bu əsr siyasi düşüncə və təcrübə tarixində böyük eksperimentlər və innovasiyalar dövrü idi. Bu dövr sünni camaatının nümunəvi nəzəriyyələrinin yuxarıda qeyd edildiyi kimi, türk-monqol, islam fəlsəfəsi İşraqi məktəbi fərziyyələrinin, şiə imam düşüncələrinin, sufilərin "kamil insan" konsepsiyası və hakimiyyət və legitimliyin ilahi mülahizələrinin təsirinə məruz qaldığı bir dövr idi. Bu istiqamətlərin əksəriyyəti Ağqoyunlu Uzun Həsənin (öl.1478/882) dövründə bir-birlərinə yaxınlaşır, lakin kövrək "Türk-İran-Sünni-Sufi" sintezi öz banisinin ölümündən sonra çox yaşaya bilmir. Buna baxmayaraq Uzun Həsənin nəvəsi İsmayıl Səfəvinin 1501/906-cı ildəki

zəfəri bu elementlərə sufi ustadın irsi xarizmasını əlavə edir. Bu xarizmaya Allahın şahın gözünə görünməsi, imamlar və peyğəmbərlə təcəssüm olunması və ya ən azından Qeybə çəkilmiş İmamın birbaşa nümayəndəsi olması kimi ifrat şiə etiqadı daxil idi. Bütün bunlar şübhəsiz ki, hakimiyyətin şəxsi, dəyişkən konsepsiyasının inkişafı üçün əlverişli şəraitin yaradılmasına yardım etmiş və bununla da Qaraqoyunlu və Ağqoyunlu türkmən dövlətlərindən daha sabit dövlət yaratmağa kömək etmişdi.

Bilavasitə əvvəlki müzakirədə qeyd edilən xronoloji, coğrafi və tematik parametrlər çərçivəsinə yerləşdirilmiş Ağqoyunlu konfederasiyasının tarixi  yuxarıda təsvir edilən ümumi istiqamətləri əks etdirir. Şübhəsiz ki, keçmiş bəşər təcrübəsinin bu hissəsinin nə geniş konturları, nə də spesifik xüsusiyyətləri tam dəqiqliklə təsvir edilə bilməz. Bu dövrün tədqiqatçılarının əksəriyyəti Ağqoyunluları ya Osmanlıların şərq istiqamətindəki yürüşlərinə əngəl,  ya da İranın Səfəvilər tərəfindən yaradılacaq "milli dövlətinin" müqəddiməsi kimi görürlər. Buna görə də bu tədqiqat əsəri Ağqoyunluların tarixində XIV/VIII əsrin ortalarından başlayan konfederasiyadan imperiya qalıqlarının XVI/X əsrin əvvəllərində Səfəvi Qızılbaşlar tərəfindən dağıdılmasına qədər olan bir əsr yarım ərzində baş vermiş siyasi hadisələrin düzgün xronoloji təsvirini yaratmaq cəhdidir. Bu tədqiqatın ikinci mühüm məqsədi Ağqoyunluların siyasi tarixinin əsasını təşkil edən başlıca struktur və prosesləri izah etməkdir.

**Dövrləşmə**

Əsərdə Ağqoyunlu tarixinin iki mühüm mərhələsi, 1467/872-ci ilə qədərki Bəylik və 1467/872-ci ildən 1508/914-cü ilə qədərki İmperiya dövrü tədqiq edilir. Bəylik dövrü Qara Osmanın ölümünə qədərki ilk bəyliyin formalaşması, Böyük vətəndaş müharibəsi və Uzun Həsən tərəfindən bərpa edilən

bəylik olmaqla üç mərhələyə bölünür. İkinci, imperiya dövrü isə böyük işğalları, Uzun Həsən tərəfindən imperiyanın yaradılması və yüksək inkişaf nöqtəsinə çatması, mədəni çiçəklənməsi, Yaqubun dövründən başlayaraq tənəzzülü və Səfəvilərin hakimiyyətə gəlməsi ilə nəticələnən konfederasiyanın tayfa müharibələrini əhatə edir.

Bəylik dövrünün başlıca mövzusu Ağqoyunlu konfederasiyasının köçəri “kazak” quldur dəstəsindən əkinçilik və ticarətlə nizamlı əlaqə yaratmağa müyəssər olmuş, lakin bu əlaqənin hələ də quldur xarakter daşıdığı, qismən mərkəzləşdirilmiş, ərazi bəyliyinə çevrilməsinə səbəb olmuş siyasi, iqtisadi və sosial tərəqqisindən ibarətdir.Tayfa konfederasiyasını formalaşdıranlar, Bayandur tayfasının yüksəlməsi, hökmdar ailə, Qara Osmanın hakimiyyəti altında konfederasiya yaradılmasındakı köçəri ənənələri də bu hissəyə aiddir.

1467/872-ci ildən sonra Ağqoyunlu hökmdarları Uzun Həsən və oğlu Yaqub torpaq və onun sakinləri, ticarət mərkəzləri üzərində nəzarəti ələ keçirərək, maksimum iqtisadi gəlir əldə etmək məqsədi ilə inzibati idarəçilik sistemində islahat apararaq, hakimiyyətləri altında olan oturaq əhali ilə həqiqi simbiotik əlaqəni inkişaf etdirərək, xüsusi köçəri ideyalar, qohumluq əlaqələri və şəxsi sədaqət naminə universal islami legitimlik prinsipləri və institutlarını dəyişərək dövləti ənənəvi İran-İslam aqrar imperiyasına çevirməyə cəhd göstərirlər.

**Ağqoyunluların sosial və siyasi quruluşu**

XV/IX əsr Türkmən dövlətlərini müzakirə edərkən istifadə olunan terminologiya və konsepsiyalar tanış olmadığı üçün bu hissə qısa şəkildə konfederasiyanın sosial və siyasi təşkilatını təsvir edir və bu tədqiqatda çox istifadə edilən termin və anlayışları müəyyənləşdirir. Bununla əlaqədar nəzərə almaq lazımdır ki, yuxarıda müzakirə olunan demoqrafik, siyasi və sosial dəyişikliklər bu strukturlarla əlaqədar lüğətdə əks

olunmuş institusional və sosial quruluşlara dərin təsir göstərmişdilər. Ərəb və fars sözləri türk və monqol terminologiyası ilə əvəz edilir, lakin bu terminologiya heç də hər zaman institusional dəyişiklikləri əks etdirmirdi. Bundan sonrakı müzakirədə leksikologiyada edilən izah və müqayisələr monqollardan sonrakı dövrdə Mərkəzi İslam torpaqlarındakı siyasi və sosial təcrübəni anlamağa yardım edəcəkdir.

Ağqoyunlu və ya Bayanduri konfederasiyasının (*el və ulus*) özəyi bəzi mənbələrə görə, əfsanəvi türk qəhrəmanı olan Bayandur xandan, bəzilərinə görə isə  Oğuz xanın öz nəvəsindən törəmiş Oğuz türkmənlərin ali tayfası tərəfindən formalaşdırılmışdır (əlavə A-ya bax). Bu ali tayfa və şəxsən tayfa başçısı Bayandura bağlı olan tayfa üzvləri və hörmətli tayfa başçıları (*li signori, umara-yi ‘izam, sardaran-i il, ulu bəylər, boy bəyləri, boy xanları*) hamısı birlikdə on beş türk, ərəb və kürd tayfasının ittifaqını (*bətn, camaat, əşirət, boy*; bu tayfaların ən önəmliləri haqqında məlumat üçün əlavə B-yə bax) təşkil edirdilər. 1473/878-ci ildə Uzun Həsənin hakimiyyəti altında olan bu tayfa başçılarını Venesiyalı elçi Katerino Zeno belə təsvir edirdi: “Onların hər birinin malik olduğu hakimiyyət bu ağaların [*li signori*] öz camaatlarına başçı təyin edildiklərinə işarə edirdi, onlara hakimiyyət verən və bu hakimiyyətdən məhrum edən Zati-aliləri idi. Zati-aliləri onları çağıranda onlar gəlirlərinə uyğun sayda atlı insanlarla onun hüzuruna gəlirdilər.”[xxv] Zenonun sözlərini Yaqubun saray tarixçisi, imperiya dövrünün son mərhələsində Bayandur hökmdarlarının tayfa başçılarını itaətdə saxlamaq və tabe etmək bacarığını tərifləyən Fəzlullah Xunci İsfahani də təkrarlayır.[xxvi]

Sözsüz ki, hakim ilə tayfa başçıları arasında olan münaqişə tayfa əsasında formalaşmış dövlətlərin tarixinin başlıca mövzusunu təşkil edir.[xxvii] Hakimiyyətinin ilk dövründə hökmdar bütövlüklə öz ailə və nəslindən kənarda mövcud olan sosial qrupların hərbi dəstəyindən asılı olur. Bu mərhələdə hökmdar bu dəstəyi təmin edən insanların, tayfa başçıları ittifaqının əslində şəxsi mənafedən asılı olaraq daim dəyişən

sədaqətini qazanmağa, real və ya yardımçı qohumluq bağları və nikah müttəfiqliyinə söykənən şəbəkə vasitəsilə bu dəstəyi möhkəmləndirməyə can atır. Başçının hakimiyyətini tanımaq tayfa başçılarına müharibə qənimətlərini ələ keçirmək, dinc dövrdə isə başçının hədsiz səxavətindən bəhrələnmək imkanı verirdi. Bu vəziyyət yalnız ona tabe olan cangüdənlər dəstəsinin və yalnız onun siyasi məqsədlərinə tabe olan əlverişli idarə sisteminin yaradılması ilə hökmdarın hakimiyyətini daha sabit və məntiqli edirdi. Bu mərhələdə hökmdar cangüdənlərinin və bürokratik aparatın imkanlarını onu hakimiyyətə gətirən qrupların cilovlanmasına yönəldir. Adətən bu tədbirlərə həmin qrupun siyasi və iqtisadi imtiyazlarının azaldılması və ya ləğv edilməsi, tayfa ittifaqının demoqrafik əsasının dəyişdirilməsi daxil idi. Bu məqsədlə sonrakı mərhələdə hökmdar şəxsi cangüdənlərini tayfa başçılarına dəyişər və ya köhnə tayfa qaydasını dağıdıb müxtəlif tayfaların üzvlərindən yeni hissələr və ya “öz adamlarının” rəhbərlik etdiyi yeni “etnik qruplar” təşkil edib hərbi təşkilatın yeni  sistemini yaratmağa cəhd göstərə bilərdi. Beləliklə, güc bu gərginliklərin və ziddiyyətlərin aradan qaldırılması üçün çox zaman zəruri faktora çevrilirdi, hökmdar isə eyni zamanda öz tərəfdarlarını nəzarətdə saxlamaq, təltif etmək və sakitləşdirmək məcburiyyətində idi.

Zenonun yazdığı kimi, türkmənlərin dövründə hərbi xidmət müqabilində ən geniş yayılmış mükafat forması tayfa başçılarına hər hansı bir ərazi üzərində vergi və idarəçilik hüququnun verilməsindən ibarət idi. Bu cür mükafat mənbələrdə *tiyul* və ya *ölkə* adlandırılırdı[xxviii], lakin mənbələr bu mükafatın hansı spesifik şərtlər altında verildiyini açıqlamır. *Kitabi Diyarbəkriyə*nin iki hissəsində Qaraqoyunlu dövründə mövcud olan bu təcrübə haqqında məlumat verilir. Birinci hissədə1466/871-ci ildə Cahanşah Qaraqoyunlunun qiyamçı oğlu Pir Budağa qarşı yürüşə çıxaraq Bağdadı onun əlindən almaq planından bəhs edilir. Cahanşah bu yürüşə hazırlaşan oğlu, İsfahan hakimi də daxil olmaqla  “digər hərbi rəisləri və uzaq əyalətlərin *tiyul* sahiblərini” orduya

çağırmaq üçün öz nümayəndələrini göndərir.[xxix] Digər hissədə 1467/872-ci ildə Cahanşahın ölümündən sonra salnamədə Şiraz hakiminin "başçıların" sədaqət andını qəbul etməsi təsvir olunur. Bu başçılar "*ölkə* və *tiyul*lara malik imperiya süvari dəstəsinin elitası, onların tərəfdarları və həmkarlarından, qohumluq əlaqələrinə uyğun olaraq öz əsabələri ilə gəlmiş, öz rütbələrinə uyğun təqaüd, maaş, şərəf və mükafat qazanmışlardan…" ibarət idi.[xxx]

Bundan başqa Səfəvi dövrünə aid iki nəşr olunmumış sənəddə türkmən dövründən dərhal sonra başlamış mərhələdə bu təcrübənin bəzi tərəfləri işıqlandırılır. Birinci sənəddə Səfəvi ərazisində *Luy* ilindən *Takaqu* ilinə, yəni 1508-1513/ 913-920-ci illərdə Qızılbaş hərbi sərkərdələrinə məxsus *tiyul* və *ölkə*lərin siyahısı təqdim edilir, lakin bu sənəddə də onlar arasındakı fərq izah olunmur.[xxxi] İkinci sənəd, Mosullu tayfasından olan Əmir bəyin Şah İsmayıla göndərdiyi şikayət məktubu bir qədər sonrakı dövrə, 1515/920-921-ci ilə aiddir. 1507/913-cü ildə Səfəvilərə qoşulmuş keçmiş Ağqoyunlu sərkərdəsi Əmir Bəy hökmdara fərqli səbəblər üzündən müxtəlif dövrlərdə ona verilmiş dörd *ölkə*nin heç birindən heç bir gəlir əldə etmədiyini bildirir və özünün qeyri-müəyyən olan maliyyə mənbəyindən imperiya məiyyətinin (*nökər, mülazim*) əlavə hissəsinin təmin edilməsi tələb edildiyindən şikayət edir. Onun etirazları nəhayət, 1516/922-ci ildə Xorasan hakimi və İsmayılın böyük oğlu və varisi Təhmasibin qəyyumu təyin edilməklə nəticələndi.[xxxii]

İmperiya dövründə tayfa ittifaqı siyasi cəhətdən inkişaf etdikcə, mühüm şəhərlər və onları birləşdirən bölgələrarası ticarət yolları üzərində nəzarət ələ keçirildikcə tayfa başçıları və hərbi elita üzvlərinə veriləcək digər sərvət mənbələri də peyda olmağa başlayır. Şəhərlərdə vilayət hakimləri və qarnizon rəisləri sistematik olaraq islamın Müqəddəs Qanununa zidd olan şəhərlərin tranzit ticarət əməliyyatları və məhsullarından bələdiyyə vergisi (*tamğavat*) toplayırdılar. Əllərinə topladıqları böyük məbləğdə vəsait iqtisadi cəhətdən onları yeri gələndə hökmdarı və onun idarə

aparatını təhdid etməyə imkan verəcək qədər güclü edirdi.

Konfederasiyaya daxil olan tayfaların özləri ittifaqa daxil olma tarixi və səbəbləri ilə əlaqədar bir neçə kateqoriyaya bölünürdülər. Birinci qrupa Anadolunun şərqində formalaşmış ittifaqın üzvü olan türkmən tayfaları, sağ qolun hakim tayfası Purnak və sol qolun hakim tayfası Mosullu daxil idi. Məmlüklərin sərhədboyu zonasında, müasir Suriyanın şimalı ilə Türkiyənin mərkəzi-cənub ərazisində məskunlaşmış, Əfşar və Bayat tayfalarının da daxil olduğu türkmən tayfaları konfederasiyası Suriya düzlərinə doğru genişləndikcə Ağqoyunlu qüvvələrinin ikinci əsas mənbəyini təşkil etdiyi üçün olduqca mühüm əhəmiyyət kəsb edirdi. Üçüncü qrupa Qərbi Anadolu bəyliklərinin hakimləri daxil idi. XV/IX əsrdə Osmanlı dövlətinin əraziləri genişləndikcə onlar öz məiyyətləri ilə birgə şərqə doğru çəkilərək Ağqoyunlu ittifaqına qoşulurlar. Bununla əlaqədar Qaramanilər və İsfəndiyariləri misal gətirmək olar. Dördüncü qrupu 1467/872-ci ildə dağıdılmış rəqib Qaraqoyunlu ittifaqının qalıqları təşkil edirdi. Bunlara güclü Alpavut və Çaxırlı tayfaları daxil idi. Beşinci qrupu Bayandur xanımlarının siyasi nikaha girdiyi Teymuri Miranşahiləri və Səfəvilər kimi digər elit qruplardan formalaşmış tayfalar təşkil edirdi, tarixin müxtəlif mərhələsində onlar da ittifaqda mühüm rol oynamışdılar. Nəhayət, sonuncu, altıncı qrupa çox guman ki, heç bir zaman Ağqoyunlu konfederasiyası sisteminə tamamilə inteqrasiya olunmamış, lakin zaman-zaman konfederasiyanın hərbi əməliyyatlarında iştirak etmiş tayfalar daxil idi ki, bunlara da türkmən Dögər, kürd Bulduqani və ərəb Banu Rəbiə tayfalarını misal çəkmək olar.

Konfederasiya tayfaları Ağqoyunlu hərbi qüvvələrinin özəyini təşkil etsə də, hər zaman hökmdarın ayrı-ayrı köçəri və yarımköçəri qruplardan toplanmış, təlim görmüş və nizamlı şəkildə sultandan maaş alan, lakin heç bir tayfa bağlılığı olmayan fərdlərdən formalaşmış dəstələri və ya sultanın şəxsi hissələri *(le zente d`armi, boy nökəran, xavass, nökəran-i xassa, inaqan*) ilə ziddiyyətdə olmuşdular. Katerino Zeno yazır ki, “orduda xidmət edənlər (*le zente d`armi*) illik maaş

alırdılar, onların maaşları üç aydan bir ödənilirdi; süvari əsgər ildə 40-60 dukat arası maaş alırdı."[xxxiii] Bundan başqa Minorski qeyd edir ki, "Ağqoyunlular bu hissədə xidmət etmək üçün Bayandur qoluna aid olan döyüşçülərdən heç bir zəmanət tələb etmirdilər.[xxxiv] Məsələn, Əmiroğlu Həsən [Mosullu] Uzun Həsənin *boy nökərləri*nin[xxxv] arasında idi, Həsən Ağa Çələbioğlu [Mosullu?][xxxvi] və Şərafəddin Ağa Yasavul Əfşarın[xxxvii] da rütbələri onların hökmdarın şəxsi hissəsinə daxil olduqlarına dəlalət edirdi. Görünür, Ağqoyunlu hərbi hissələri strukturuna görə, tayfa başçıları üzərində nəzarəti təmin etmək üçün "üçüncü qüvvə" kimi Səlcuq vəziri Nizam əl-Mülk tərəfindən yaradılmış və tayfa başçılarının oğullarının xidmət etdiyi türkmən girov-*qulam* hərbi hissələrinə bənzəyirdi.[xxxviii] Yüksək rütbəli tayfa başçılarının buna bənzər, lakin daha kiçik miqyasda silahlı məiyyətləri mövcud idi. Əmir bəyin yuxarıda istinad edilən məktubundan görünür ki, tayfa başçıları hökmdarın hərbi hissələrinin bir hissəsinin haqqını təmin etməli idilər. Ağqoyunluların dövründə hökmdarın hərbi hissələrinin həcmi və konfederasiya qoşunlarına münasibətdə gücü dəyişkən idi. Hərbi əməliyyatlarda və döyüşlərdə iştirak edən hərbi hissələrin təsvirini təhlil etdikdə imperiya dövrü ilə müqayisədə mütərəqqi Bəylik dövrlərində hərbi gücün daha mühüm əhəmiyyət kəsb etdiyini görürük.

Hərbi hissələrin üzvlərinin çox zaman sultanın "kənar xidmətdə" (*birun*) və ya vəzir sarayında (*dərbar*) *qapıçı, eşikağası*[xxxix], *möhürdar* və *əmir-i axur* kimi mühüm vəzifələr tutduğunu görürük. Onlar həmçinin tez-tez şahzadələrin[xl] qəyyumu (*lələ*) və şəhərlərdə hökmdar qarnizonunun rəisi (*darğa*) təyin edilirdilər.[xli] Bundan başqa şahinçilər, aşpazlar, kitabxanaçılar, musiqiçilər, silah ustaları, çaparlar, carçılar, qasidlərin daxil olduğu qeyri-hərbi, qeyri-inzibati şəxsi xidmət sahəsində olanlar da saraya bağlı idilər və nəticə etibarilə hökmdarın şəxsi mühafizəçilərinin bir hissəsini təşkil edirdilər.[xlii]

Təəssüf ki, Ağqoyunlu sarayının (*hərəm*) daxili quruluşu

haqqında məlumat olduqca azdır, lakin imperiya yaradıldıqdan uzun müddət sonra da hakim tayfa tərəfindən köçəri adətlərinin inkişaf etdirilməsi Ağqoyunlu qadınlarının Osmanlı dövlətindəki bacılarından da az qapalı olduqlarına işarə edir. Bayandur hökmdar analarının bir çoxunun daxili və xarici siyasət sahəsində aktiv siyasi rolu bu fərziyyənin doğru olduğunu təsdiqləyir. Bundan başqa Xuncu-İsfahani xüsusi olaraq qeyd edir ki, Ağqoyunlu hökmdarları qonşu sülalələrdə (*mülük-i ətraf*) olduğu kimi kənizlərlə evlənmirlər. Çox guman ki, qonşu sülalələr deyərkən müəllif Teymuriləri nəzərdə tuturdu.[xliii] “Daxili xidmətdə” (*əndərun*) və ya sarayda şübhəsiz ki, tayfa konfederasiyası rejimindən uzaq olan, sultan təsərrüfatını idarə edən heyət mövcud idi. Bunlara ola bilsin ki, Covanni Darionun 1485/890-cı ildə[xliv] Qəzvində gördüyü dörd gənc hərəmağası kimi qullar daxil idi, XVI/X əsrin əvvəllərində Amid bazarlarında hələ də ağ və qara qullar satılırdı.[xlv] Köləlik türkmən cəmiyyəti strukturunda heç bir zaman əhəmiyyətli rol oynamamışdır.

Sultan, qardaşları, oğulları və həyat yoldaşları, saray xidmətinin qulluqçuları və şəxsi qüvvələr, mühüm əhəmiyyət kəsb edən tayfa başçıları köçəri hərbi elitanın əsas nümayəndələri idilər, onlar hərdən *kinqaşda*, kübarlar şurasında toplaşaraq varislik və hərbi siyasəti müzakirə edirdilər.[xlvi] Görünür, kübarlar şurasında qərar qəbul edilməsi üçün onun əsasını təşkil edən qrupların iştirakı vacib idi və sultan çoxluğun qərarına uyğun hərəkət etmək məcburiyyətində idi. Əslində hökmdar bir neçə dəfə, xüsusilə də Böyük vətəndaş müharibəsi dövründə şura siyasətinin əksinə getmiş və bu, hər iki tərəfin, həm hökmdar ailəsinin, həm də onun rəqibləri olan tayfa ittifaqının məğlubiyyəti ilə nəticələnmişdi. Lakin sultanın uğurla öz istəyini şuraya qəbul etdirə bilməsi hallarına da rast gəlinir, belə olduğu halda onun nüfuzu və təsiri artmış olurdu. Qeyd etmək lazımdır ki, kübarlar şurası cəmi üç dəfə ölmüş hökmdarın arzusuna uyğun olaraq varis təyin etmişdilər və hər dəfə də taxta çıxarılan şəxs onu taxta çıxaranlar tərəfindən devrilmişdir.




**Təsvir 2. Ağqoyunluların İmperiya sistemi**

“Türkmənlər və farslar neft və su kimi bir-birlərinə azad şəkildə qarışmadılar və əhalinin ikili xarakteri Persiyanın həm hərbi, həm də inzibati idarəçilik sisteminə ciddi təsir göstərdi”[xlvii] deyən Minorskinin sözləri ilə razılaşıb razılaşmamaq olar, lakin Ağqoyunlu sistemində köçəri hərbi elita (türklər) ilə Şərqi Anadolu və İranın şəhər elitası (taciklər) arasında İslam tarixinin orta və son dövr dövlətlərinin çoxu üçün xarakterik olan bir xüsusiyyətin, etnik və linqvistik deyil, köklü sosial və siyasi parçalanmanın mövcud olduğunu qeyd etmək lazımdır (təsvir 2-yə bax).

XV/IX əsr boyunca bu iki qrupun hiss ediləcək siyasi və sosial assimilyasiyasına dəlalət edə biləcək çox az sübut var. Şəhər kübarlarından heç birinin Ağqoyunlu konfederasiyasında yüksək hərbi mövqe tutmadığını, heç bir sərkərdənin də hər hansı dini instituta üzv olmadığını buna misal gətirmək olar. Buna baxmayaraq, sultanın saray idarəçiliyinin bir sıra şöbəsində sosial mənşələrinə uyğun olaraq həm köçəri, həm də oturaq əhali içərisindən seçilmiş bacarıqlı insanlar xidmət

göstərirdi. Bunların içərisində həm türk, həm də tacik şairlər, rəssamlar və xəttatlar var idi.

Türk və tacik aristokratiyası arasında qarşılıqlı nikahlara nadir hallarda rast gəlinirdi, rəsmi olaraq buna müsbət yanaşılmırdı. İmperiya dövründə buna bir neçə misal göstərmək olar. Deyilənə görə, hökmdar anası Səlcuqşah Bəyim vəfat etmiş oğlu Sultan Xəlilin dul qalmış xanımının Hüseyin Çələbi ilə evlənməsinə mane olmaq üçün şahzadələr şurasını çağırır. Səlcuqşah Bəyim Uzun Həsənin dini məsələlər üzrə vəzirinin qardaşını "adi insan" (bir rəiyyət) adlandırır.[xlviii] Bir müddət sonra Sultan Xəlilin qardaşı və varisi Yaqub öz bacısının dini məsələlər üzrə vəziri olan Qazi İsa Savəci ilə izdivacını qadağan edir və bunun türk ənənələrinə zidd olduğunu qeyd edib məcazi olaraq "türk barbarlığı" (*cahiliyət-i türkan*) adlandırır.[xlix] Bayandur şahzadələri ilə Səfəvi dini ordeninin liderləri arasında yaxşı məlum olan ittifaq bu sahədə ən böyük istisna idi.[l]

Bu sosial və siyasi parçalanma rejimin rəsmi olaraq köçəri təsərrüfatı dəstəkləyərək oturaq həyatı məhdudlaşdırma siyasəti vasitəsilə ideoloji təsdiqini tapırdı. Deyilənə görə, Çingiz xanın Yasasında şəhərlərdə məskunlaşmaq qadağan olunmuşdu[li] və bu kəlam öz oğullarına "oturaqlaşmayın, hakimiyyət üçün köçəri türkmən həyat tərzini qoruyanlara arxalanın" deyən Ağqoyunlu bəyliyinin banisi Qara Osman tərəfindən təkrarlanmışdı.[lii] XV/IX əsrin sonunda, imperiya dövründə bu prinsip Qara Osmanın kötücəsi Yaqub ibn Uzun Həsənin saray tarixçisi Xunci-İsfahani tərəfindən təkrarlanır. O, açıq ərazidə (*sahari*), yaylaq və qışlaqlarda yaşayan, "çirkli və əxlaqsız şəhərlərdə" (*mudun-i xabisə və …bilad-i fəsidə*) məskunlaşaraq özlərini şəhərin natəmizlik və rəzilliyi ilə çirkləndirməyən Bayandur ailəsinin üzvlərinə rəğbət bəsləyən ilk şəsxlərdən idi. Sonralar o, köçəri həyat tərzinin möhkəmləndirilməsini əsaslandırmaq üçün Quranın Qureyşilərin yay və qış köçlərini əks etdirən 106-cı surəsinə istinad edəcək ki, bu da həmin dövrdə islamın legitimləşdirilmiş prinsiplərinin bütpərəst köçəri ənənələri ilə əvəz edilməsinə

bir nümunədir. O, hər yerdə ordunun oturaqlaşmasına və onun bəzi sərkərdələrinin əkinçi zadəganlara çevrilməsinə qarşı çıxırdı.[liii]

İki əsas təbəqənin siyasi və institusional parçalanması və yaşam tərzi həm mərkəzi, həm də vilayət idarə aparatında daha yaxşı nəzərə çarpır. Hökumətin ən yüksək səviyyəsində, divan-i ali və ya ali inzibati şurada (Ağqoyunluların siyasi, iqtisadi və hərbi işlərlə bağlı tez-tez toplaşan qurumu) hakimiyyət az-çox bərabər bölünmüşdü. Bu şuranın hansı qayda ilə toplandığı məlum deyil, lakin mənbələrdə rəsmilər arasında yaranmış mübahisə ilə bağlı şuranın on iki günlük buraxılması haqqında iki hadisə əks olunub.[liv] Bu ali mərkəzi hökumət katibliyinə maliyyə işləri üzrə vəzir, dövlət katibi (*münşi əl-məmalik*), nəzarətçi (*mustovfi*), dini işlər üzrə vəzir (*sədr əl-Şəriət*), islam məhkəməsinin sədri (*qaziəsgər**[lv]**, qazi əl-quzat*) və şübhəsiz ki, şəhər zadəganlarının nümayəndələri daxil idi.[lvi] İdarə işçilərinin rəhbərləri və şuranın sədri (*divan bəyi, əmir-i divan*), ali baş komandan (*əmir əl-üməra*)[lvii], ordu katibi (*əmir-i divan-i tuvaçi*)[lviii] və xəzinədar (*xəzin*) vəzifəsini adətən tayfa ittifaqının üzvləri tuturdu. Hərbi hissə şurada möhürdar, protokol rəhbəri (*mehmandar, şiqavul*)[lix] və hökmdarın təsərrüfatını idarə edən tərəfindən təmsil olunurdu. Hökmdarın təsərrüfatını idarə edənin yasavulları lazım olan şəxsləri şuranın hüzurunda həbs edirdilər. Əmrlər sultan təsərrüfatında çalışan *carçıyan* və ya xüsusi elçi (*bukavulan, hərfi tərcüməsi "dadıcı"*)[lx] tərəfindən elan edilir və yerinə yetirilirdi. Vergi imtiyazları və diplomatik yazışmalar adətən köçəri hərbi elita tərəfindən qeydiyyata alınır, dini təyinatlar və ianələr isə dini işlər üzrə vəzir tərəfindən imzalanılırdı. İmperiya dövründə Ağqoyunluların mərkəzi inzibati şurasının əyalətlərdəki nümunəsi 3-cü təsvirdə əks olunub.

| Taciklər | Türklər |
|---|---|

| Dini İnstitutlar | Administrasiya, Bürokratiya | Hərbi birləşmələr | Tayfa konfederasiyaları |
|---|---|---|---|
| Sədr əl-Şəri'ə (Dini işlər vəziri) | Maliyyə vəziri | Eşik ağası | Divan bəyi (Qərargah rəisi), Əmir əl-Üməra (Ordu komandanı) |
| Qazi əl-Quzat (Baş qazi) | Munşi əl-Məmalik (Dövlət katibi) | Möhrdar | Əmir-i Divan-i Tuvaçi (Ordu katibi) |
| | Mustofvi (Xəzinə nəzarətçisi) | Mehmandar, Şiqavul (Protokol rəisi) | Hərbi nazir Xəzinədar |

**Təsvir 3. Ağqoyunlu imperiyasının İnzibati Şurası**

Digər iki qrupun, tacirlər (*tüccar, bazarqan*) və məşhur dini qardaşlıqların liderlərinin (*sufiyan, dərvişan*) sultan və mərkəzi inzibati şura ilə əlaqəsi nisbətən zəif idi. Əsasən parça ticarəti ilə məşğul olan beynəlxalq tacirlər sultanın adından müxtəlif ticari əməliyyatlar və onun şəxsi göstərişlərini yerinə yetirməkdən əlavə[lxi] qonşu ölkələrdə həm də diplomatik nümayəndə və ya xəfiyyə rolunu da icra edirdilər. Bundan başqa imperiya dövründə onlar tez-tez sarayda sultan tərəfindən qəbul edilirdilər.[lxii] Cəmiyyətin müxtəlif sosial təbəqələrindən təşkil olunmuş məşhur dini liderlər hökmdar və onun inzibati idarəsi ilə xalq arasında əlaqə yaradan mühüm bağ idilər, onlar rəsmi siyasəti dəstəkləmək üçün ictimai rəyi formalaşdıran vasitə idilər. Ən məşhur dini liderlər dövlətə xidmətdən imtina etsələr də[lxiii] onların bir qismi diplomatik və inzibati sahələr də daxil olmaqla bəzi rəsmi və qeyri-rəsmi mövqeyə sahib idilər. Buna misal olaraq Dərviş Siracəddin Qasım Nəqşibəndini misal gətirmək olar. O, iyirmi il Əbu Yusif Qaraqoyunluya xidmət etmiş, 1469/874-cü ildə Uzun Həsənə qoşulmuş və onun ilk

mehmandarı, sonra isə katibi olmuşdu. Uzun Həsənin oğlu Sultan Xəlilin qısa hakimiyyəti dövründə o, səfir kimi Osmanlı sarayına göndərilmiş, Yaqubun hakimiyyəti dövründə isə on il Nəsriyyə xeyriyyə fondunun qəyyumu, sonra isə Nəsriyyə türbəsinin başçısı olmuşdu.[lxiv] Onun sərxoş vaxtı qəzəblənmiş Yaqubun əli ilə öldürülməsi 5-ci fəsildə nəql ediləcək. Şeyx İbrahim Gülüstani Xəlvəti bir neçə Ağqoyunlu sultanı üzərində böyük təsirə malik idi və hökumətdə heç bir vəzifə tutmasa da tez-tez inzibati şuranın toplantılarına gələrdi. Uzun Həsənin ali dini hakimi Qazi Əlaəddin Beyhəqi isə Xəlvəti dini ordeninə qoşulduqdan sonra aktiv siyasi fəaliyyətdən uzaqlaşır.[lxv]

Ola bilsin ki, mərkəzi inzibati struktur vilayətlərdə bir qədər kiçik miqyasda şahzadə apanajı* (*hökumət, əyalət, ölkə, səltənət*) və hərbi idarəçilik (*darğayi, hökumət, əyalət*) sistemində təkrarlanırdı. Əslində *ölkə* texniki termin olaraq əvvəldə də qeyd edildiyi kimi türkmən dövründə şahzadə mülklərinə aid deyildi, lakin bu söz tez-tez əyalətlərdən gələn və şahzadələrə çatan gəlirin müəyyən bir hissəsi olan *xuruş* termini ilə əlaqədar işlədilirdi.[lxvi] Nəzəri cəhətdən əyalət mülkünə sahib şahzadənin işinə mərkəzi idarə aparatının qarışması mümkün deyildi, lakin yerli əhali şahzadənin hərəkətlərindən sultana şikayət etmək imkanına malik idilər.[lxvii] Kiçik yaşlı şahzadələr adətən təyinat aldıqları vilayətlərə ya konfederasiyanın, ya da hərbi hissənin nümayəndəsi olan qəyyumlarının müşayiəti ilə gedirdilər. Sonradan bu qəyyumlar vilayət şurası heyətinin başçısı və vilayət paytaxtı qarnizonunun hərbi rəisinə çevrilirdilər. Onların hərbi dəstələri konfederasiyaya daxil olan bütün tayfalardan yığılan qüvvələr hesabına formalaşırdı. Şahzadəyə tabe olmayan şəhər mərkəzləri vəzifə yerləri tez-tez dəyişilən, ya konfederasiyaya daxil olan tayfa başçıları, ya da sultanın hərbi dəstələrinin zabitləri içərisindən seçilən hərbi sərkərdələr tərəfindən idarə olunurdular. İcra etdikləri vəzifənin əvəzində onlar səlahiyyətləri altında olan şəhərlərdən yığılan bələdiyyə rüsumunun bir hissəsini əldə

edirdilər.[lxviii] Adətən bu sərkərdələr yerli irsi şəhər rəhbərləri və ya başçıları (*rəis, sərdar*) ilə birgə fəaliyyət göstərirdilər, lakin Şərqi Anadolu və İranın şəhər mərkəzlərinin yerli rəhbərləri ilə türkmən hərbi köçəri hakimiyyəti arasında gərginlik qaçılmaz olurdu və çox zaman bu gərginlik açıq düşmənçiliyə çevrilirdi. Müəyyən məhdudiyyətlərə baxmayaraq bu iki qrupun qarşılıqlı maraqları, Marşal Hodgsonun əyan-əmir adlandırdığı sistem güclü mərkəzləşdirilmiş hakimiyyətin olmadığı dövrdə qayda-qanunun möhkəmləndirilməsi və cəmiyyətin özəyinin qorunması üçün effektiv mexanizm olduğunu sübut etmişdi.[lxix]

Bayandur rəhbər tayfası və hökmdar ailəsinin sosio-siyasi strukturunun təhlil edilməsi cəhdləri yeni və tanış olmayan terminologiya və konsepsiyalardan istifadəni zəruri edir. Yuxarıda kübarlar şurası və apanaj sistemi təhlil edilərkən bu strukturun hakimiyyətdə vərəsəlik prinsipi, sülalə nəzəriyyəsi və bütövlükdə liderlik konsepsiyası kimi məsələlərlə bağlı iki spesifik aspektinə artıq toxunulub. Çöl mənşəli dövlətlərdə bir insanın idarə etməsi zamanı böhranlı vəziyyətlərdə onun şəraitə uyğun olaraq qərar qəbul etməyə məcbur olması təcrübəsini nəzərə alsaq, Ağqoyunlu dövlətinin də əksər türk dövlətlərində olduğu kimi hakimiyyətdə vərəsəliklə bağlı xüsusi qanuna malik olmadığını söyləyə bilərik.[lxx] Bu cür dövlətlərdə hakimiyyətin bir nəfərdən digərinə transfer olması uzun zaman alır və ağır münaqişəyə səbəb olur. Varis öz mövqeyini möhkəmləndirmək və hakimiyyətinin legitimliyini təsdiq etmək üçün vətəndaş müharibəsinin çətin sınaqlarından keçməli olur.[lxxi]

Bu cür qeyri-müəyyən varislik nümunəsinin sülalələri, hakim ailələri və tayfaları birləşdirdiyi şübhəsizdir, çünki belə bir şəraitdə həm ərazi, həm də siyasi hakimiyyət əslində heç bir şəxsə aid olmur, onlar üzərində kollektiv mülkiyyət mövcud olur.[lxxii] Bu cür sülalələrdə hökmdar evinə məxsus kişi cinsinin istənilən nümayəndəsi nəzəri olaraq əlçatan və ya əlçatmaz olan ümumi irsə iddia irəli sürmək hüququna malik idi. Bunun üçün onun neçənci övlad olmasından və ya hansı

rütbə prinsipinin mövcudluğundan asılı olmayaraq yalnız hökmdarın varisi olması kifayət edirdi. Nəticədə hakim ailənin birgə hökmranlığı ərazilərin hakim ailə üzvləri arasında daimi bölüşdürülməsinə səbəb olurdu. Fransa Merovinqləri, Kiyev Rusları, Buyidlər, Səlcuqlar, Əyyubilər və Çingiz xanın varisləri kimi müxtəlif qruplar arasında geniş yayılmış bu parçalanma və ya apanaj sistemi hakimiyyət konsepsiyasının bu cür institutlaşdırılması kimi qəbul edilməlidir.[lxxiii]

İşğalçı dövlətlər daima yeni ərazilər əldə etdikləri üçün bu ərazilərin ailə üzvləri arasında bölüşdürülməsi imkanı apanaj sisteminin istənilən qədər genişlənə bilməsi ehtimalını doğurur. Lakin Cek Qudinin qeyd etdiyi kimi pilləli şəkildə təşkilatlanmış dövləti azad hissələrə parçalamadan siyasi hakimiyyəti mənşəcə kiçik parçalara bölmək mümkün deyil.[lxxiv] Lakin türk və monqollar tərəfindən islamdan əvvəl və sonra yaradılmış bir neçə dövlətlərdə bu cür vəziyyətə uyğunlaşan bir sıra siyasi institutlar inkişaf etmişdi. Belə razılaşmalar xüsusi ərazilərdə siyasi idarələrin pilləli şəkildə inkişaf edən bir sıra rütbələrə bölünməsindən ibarət idi. Bu cür rütbələr ali qrupun bütün qohumlarının üzünə açıq olurdu. Bu halda kübarlar şurası bu idarələrə ağsaqqallıq prinsipinə əsaslanaraq namizədlər müəyyənləşdirirdi, onlara varisliyin yan və ya qardaşlıq modeli üzrə mövqelərində irəliləyərək sonunda doğma tayfanın ali nümayəndəsi vəzifəsinə qədər yüksəlmək imkanı verilirdi. Bu yolla simvolik hökmdar və azad strukturlara bölünmüş dövləti saxlamaq şərtilə hakim ailənin bütün üzvləri siyasi proseslərdə iştirak etmiş olurdu. İslam dünyasında bu cür razılaşmanın ən gözəl nümunəsini X/IV əsrdən  XIII/VII əsrə qədər Mavərənnəhri və Şərqi Türküstanı idarə etmiş Qaraxanilər və ya İlekxanlar yaratmışdılar.[lxxv]

Lakin bu cür sistemin işləməsi iştirakçıların vərəsəlik qayda-qanunlarına düzgün əməl etmələrindən asılı idi. Mərkəzi Asiya düzlərinin tarixi boyunca zərurətdən və ya şəxsi maraqlardan irəli gəlməsindən, qanuni və ya qanunsuz olub olmamasından asılı olmayaraq birləşmiş dövlətlərin üzvləri ali hakimiyyəti

qəbul etmiş və sonra da idarələri yenidən quraraq məhdudlaşdırmışdılar. Kollektiv hakimiyyət konsepsiyasından sərt şəkildə uzaqlaşmaq olan bu istiqamət 4-cü təsvirdə əks olunmuşdur. Şəcərənin ən yüksək nöqtəsində müqəddəs və ya ilahi sima olan, öz varislərinə hakimiyyət (*dövlət, farr, uğur, qut*) səlahiyyəti verən tayfanın əfsanəvi banisi X durur.[lxxvi] Bir neçə nəsil keçdikdən sonra mövcud olan tayfa siyasi təşkilatının qurucusu, bu quruma X-lərin adını verən və onların nəslindən olan Y gəlir.[lxxvii] Mövcud olan tayfa siyasətinin ideoloji gücü və Y-in şəxsi nailiyyətlərindən asılı olaraq əfsanəvi əcdaddan sonra X-lərin və ya bölgünü həyata keçirən Y-lərin I və II nəsillərə bölünməsi baş verə bilər. Lakin bu cür qurumun praktik əhəmiyyəti X/Y-lərin siyasi hakimiyyətində ardıcıllığın yalnız X-lərdən deyil, Y-lər vasitəsilə X-dən keçməsi ilə izah olunur.




**A P A N A J L A R**

**Təsvir 4. İkinci dərəcəli A və 5-ci xanədanların ləğvi ilə korporativ tayfa irsiliyi**

Bölgünün yaradıcısı olduğu üçün onun adını daşıyan tayfa torpaqlarını Y sağlığında oğulları A və B arasında bölüşdürür və X/Y-lərin şərq və qərb hissələrini yaradır. Lakin Y-in ölümü yuxarıda təsvir edildiyi kimi siyasi hakimiyyətdə vərəsəlik problemi yaradır. Çünki hər iki qardaş nəzəri cəhətdən tayfa başçılığına eyni hüquqla iddia irəli sürə bilərlər. Onların qarşılıqlı hüquq və vəzifələri bir neçə yolla formalaşa bilər: onlar ali hakimiyyəti bölə bilərlər; onlardan biri kübarlar şurasında hökmdar seçilə bilər;

fövqəladə vəziyyətdə daha qabiliyyətli olan hökmdar ola bilər; yaxud da onlar bir-biri ilə ali hakimiyyət uğrunda döyüşə bilərlər. Lakin III nəsildən başlayaraq bir tərəfdən qismən zəif tellərlə X/Y-lərə, digər tərəfdən də yoğun tellərlə öz ailəsi və nəslinə bağlı olan ali hakimiyyətə iddia edənlərin sayının artması vəziyyəti mürəkkəbləşdirir.

Adətən bu gərginliklər nikah ittifaqları və ya iddianın bir insanın üzərində cəmləşməsi vasitəsilə bir ailənin digər ailə tərəfindən sakitləşdirilməsi ilə nəticələnir. Məsələn, B çalışır ki, vərəsəlik hüququnu ələ keçirsin, bunun üçün oğlu 3-ü A-nın qızı ilə evləndirir. Lakin çox zaman bu mübahisələr vətəndaş müharibəsinə səbəb olur, vətəndaş müharibəsi isə hakimiyyətə iddia edənlərin sayının azalması və ya bir namizədin hərbi üstünlük nümayiş etdirərək digər rəqiblərini məhv etməsi ilə nəticələnir və beləliklə də həmin şəxs hakimiyyəti tək əldə etmək hüququnu təsdiqləmiş olur. 3-ün qardaşları, əmiləri, əmi uşaqları və qardaş uşaqları üzərində qələbəsi onların bir daha tayfa siyasətində iştirakına imkan vermir. Bundan başqa əvvəlki X/Y bölgüsü indi birbaşa 3-ün nəslindən olan və onu dəstəkləyənlər arasında bölüşdürülə və artıq X/Y/3-lər yarana bilər. Bu isə hakimiyyət və mülkiyyətin yeni bölüşdürülməsi deməkdir. Ağqoyunlular tarixində həm bəylik, həm də imperiya dövründə bu iki istiqamət, mərkəzdənqaçma və ya parçalanma ilə tayfa ittifaqının köçəri ənənələri və hakimiyyətin xarizmatik, şəxsi və ya bürokratik xüsusiyyəti ilə birləşməsi özünü biruzə verən başlıca aparıcı qüvvə idi. Bu cür sistem dağıdıcı və əlverişsiz olsa da[lxxviii] məhz bu dəyişkənlik, yəni siyasi mübarizədən davamlı olaraq bütöv ailələrin kənarlaşdırılması və nəticə etibarilə vərəsəlik bölgüsündə hakimiyyət səlahiyyətlərinin yenilənməsi bu sistemin bir əsrə qədər Ağqoyunlular arasında mövcud olmasına yardım etmişdir.

Yuxarıda qeyd olunan məsələni nəzərə alaraq Ağqoyunlu sülalə tarixini üç ailənin – Turəli, Qara Osman və Uzun Həsən xanədanının vərəsəliyi üzərində qurmalıyıq. Bu daxili siyasi təşkilatlanma mətndə və əlavə C-də təsvir və rəqəmlərlə, I

(Turəlilər), ı (Qara Osmanilər) və i (Uzun Həsənilər) qeyd edilmişdir. Bu bölgü mütləq deyil və ayrı-ayrı şəxslərin tarixin müəyyən mərhələsində bir neçə bölgü çərçivəsində (Qara Osmani və Uzun Həsənilərdə olduğu kimi) fəaliyyətinin mümkünlüyü nəzərə alınmalıdır. Nəhayət, mətndə əks olunmuş bir neçə təsvirlər əsərdə bəhs edilən qohumluq və siyasətin qarşılıqlı əlaqələrinin ərazi mənsubiyyətini əks etdirir. Əsərdə ümumən orta əsrlərin son dövrünün, xüsusilə də bu dövrün Türkmən mərhələsinin tematik, struktur və konseptual bazası əsasında Bayandur tayfasının mənşəyi və onun Bayandur tayfa ittifaqına çevrilməsi problemləri təhlil ediləcək.

---

**İstinadlar və qeydlər**

John Woods, *The Aqquyunlu: Clan, Confederation, Empire*, Revised, Expanded edition (Salt Lake City: University of Utah Press, 1999). Reprinted courtesy of the University of Utah Press and Professor John Woods.

[i] Kitabda bütün xronoloji məlumatlar Miladi/Hicri tarixi olmaqla ikili verilir.

[ii] Monqol dövründə İranda iqtisadi yerdəyişmə ilə bağlı bu yanaşma üçün bax: Petruşevskiy, 1965:1:43-121, 2:306-431; və CHİ, 5:483-537.

[iii] Təzkirət, əlavələrdə, 188 və hər yerdə; Sümər, 1967b:143-153

*Burada və digər yerlərdə Azərbaycan dedikdə müasir İran İslam Respublikasının ərazisindəki Azərbaycan nəzərdə tutulur (tərcüməçi).

[iv] Məsələn, bax: Köprülü 1993; Petruşevski 1985; 248ff; Mazzaoui 1972:58-63, 67-71, 83-85; və Murtazari 1979:167-366

[v] XIII-XVI/VII-X əsr İslam tarixi üzrə tədqiqat nümunəsi kimi Norman Kohnun (1970) əsərindəki orta əsr Avropasındakı minillikçilər hərəkatı qeyd edilə bilər. Son dövrdə yazılmış bir sıra məqalə və monoqrafiyalarda isə hazırkı tədqiqatda istifadə olunan istiqamətlər göstərilir. Məsələn, bax: Ocak 1980, 1992, xüsusilə də Fleyşer, 1998

[vi] Şəxsi kolleksiya

[vii] Mole 1961:69 və CHİ-də A.Bausani 5:538-540; həmçinin bax: Lambton 1962:108

[viii] Sitat Gibbdən gətirilib: 1962b:142-143

[ix] müəllif 6:172 qeyd edir, lakin sitat 7:172-dən gətirilir-tərcüməçi

[x] Əbu Səid əl-Sicistani, Sunan 34-cü kitab, Fitan, 1.

[xi] Yağış gətirən şah haqqında bax Sasra 147b-148a

[xii]Veberin xarizmatik lider haqqında müzakirəsi ilə əlaqədar bax: Taker 1968; İslamda ilahi şahlıqla əlaqədar geniş yayılmış baxışla əlaqədar bax: Siyasətnamə A:13-16, B:9-11.

[xiii] Bax: Bartold 1968: 467-469; Mazzaoui 1972: 38-39

[xiv] Sitat Kritzekdən gətirilib 1960: 180-181

[xv] Bartold 1968:6:43-55; Beker 1915: 364-410

*Apanaj hökmdar tərəfindən yaxın ailə üzvünə və ya vassalına verilən topraq və ya hər hansı imtiyazdır (tərcüməçi).

[xvi]Naxçıvani 1/1:14: “muhyi-yi mərasim-i dövlət-i Çingizxani…bər əfrazəndə-yi rəyət-i şər-i nəbavi, bər füruzəndə-yi şam-i din-i mustafavi …əl-muəyyəd bi ta’yid-i Allah, rəbb əl-əlamin…” Xarizmanın “Allahın dəstəyini əldə etmiş” mənasında təqdim olunması ilə əlaqədar bax: İnalcık 1959b: 80-81, 86-87, 94; 1993: 47, 53, 60-61

[xvii] TMEN 1: 397-398, EDPT, 647

[xviii] Natanzi, 158: “..uğur əz xandan-i Çingizxan namanda’əst həmən beh ki xud-ra bər sirət-i muluk-i mazi bi ləqəb-i əşrəf mulaqqab sazi və bi zərb-i şəmşir-i abdar ixtiyar-i mülk və millət bisitani.” Uğurun xoşbəxtlik və xarizma olması və bu fəsildə müzakirə edilən *qut* və ya *fərr* ilə əlaqədar bax: TMEN 2: 152-153; EDPT, 89.

[xix] Quzide Zeyl, 35

[xx] Faraid, Tehran əlyazması, 618-620, sitat Obendən gətirilib, 1976:31. Kolleqam Heşmət Moayyad bu kitabın nəşr edilməmiş hissəsi ilə tanış olmağıma icazə vermişdir.

[xxi] Zubdat, 7iab; Pənc Risalə, 38 “…u əz nizhəd-i kist ki dava-yi səltənət mikunəd ..çe rah-i Tacik başəd ki dava-yi padişah kuned?” (O, səltənət yaratmaq iqtidarında olan millətdəndir…Tacik padşahlıq yarada biləcək yola malikdirmi?)

[xxii] Woods, 1984: 332-333

[xxiii] Bax Sümər 1967a: 67, 85, 88

[xxiv] Hodgson 1960: 890-891, 1993: 181-184

[xxv] Breçetdə Zeno, xi, 134: “ Li signori, a beneplacito di questo signore, li mette e dismette alle sue zenti e castelli, li quali secondo la signaria che hanno, quando il signor li chiama sono obbligati di venir con certon numero di cavalli et huomini secondo le sue rendite, e cosi vengono.”(Ağalar, bu ağanın istəyinə uyğun olaraq onları tabeçilik prinsipinə uyğun dostları və istehkamları arasında yerləşdir, onlar da əldə etdikləri gəlirə uyğun olaraq tələb olunduqda müəyyən sayda at və döyüşçü ilə gəlsinlər).

[xxvi] Əmini, 25

[xxvii] Köçərilərin “feodal münasibətləri”nin klassik tədqiqi Vladirtsovun 1948 əsərində mövcuddur; bu mövzu üzrə son

tədqiqatlar üçün bax: İnalcık 1980.

[xxviii] TMEN 1: 145-147, 2: 667- 669.

[xxix] Diyar, 371: "…Cahanşah Mirzə be ətraf və aknaf-i məmalik bukavalan əz bəraye cam-i ləşkər firistade Məhəmmədi Mirzə əz İsfahan və sayir-e umara və tiyuldaran ra əz a'maqi vilayət cam kərd…"

[xxx] Diyar, 517: "…ayan-i sipahi-yan padişah ke dər ulkəha və tiyulət mandə budənd və amasil və aqran-i u ke ruy-i nəsəb xuştan ra bolənd saxta budand be nökəri-ye u furud amadand və mərsumət və məvacib və təşrifat və an'amat əla qədr əl məratib bəhra mənd gəştə."

[xxxi] TKS E.1071

[xxxii] TKS E.12212

[xxxiii] Bertdə Zeno, xi, 134: "…le zente d'armi sono pagate a ragion di anno ç et hanno le paghe de mesi sei in mesi sei, et da per homo col cavallo da ducati 40 fin a 60 li homini all' anno."

[xxxiv] Minorski 1939: 164

[xxxv] Diyar, 385

[xxxvi] Amini 157, 190

[xxxvii] Feridun , 1:321, 323/ASNAD A:648, 652

[xxxviii] Siyasət A:131, B:102. Boy nökər, nökər və inaqla bağlı ətraflı məlumat üçün bax: Vladimirtsov 1948: 111-121 və TMEN 1:521-526, 2:217-219, 358-361. Həmçinin müqayisə et: Yazıçıoğluda A: 15b *yoldaş*

[xxxix] TMEN , 2: 183-184

[xl] Müqayisə "Atabəy" Eİ² və TMEN-də, 2:7-8

[xli] Bax: Eİ² və TMEN, 1:319-323; və Manz 1985.

[xlii]Bu xidmətçilər haqqında tam məlumatı ƏRZ-də (s.34-35) əldə etmək mümkündür. ƏRZ-də onlar *nökəran-i xassə*, “şahın adamları” adlanırlar.

[xliii]Əmini, 22-23. Teymuri sülaləsi ilə bağlı bax: Voods 1990a. Ağqoyunlu hərəminin qısa təsviri üçün bax: Romano A: 450, B:175-176.

[xliv]Berchet-də Dario, 150.

[xlv] Qanunlar, 147

[xlvi]Bax: TMEN, 3:613-614; müqayisə et cəngi, TMEN, 1:280-282 və qurultay, TMEN 1:435-437. Ağqoyunlular arasında təşkil edilən qurultaya nümunə üçün bax: Diyar, III, 115, 127, 179, 180, 183, 263, 272, 421; Əmini, 142, 145, 401; Gülşəni, 93.

[xlvii] Təzkirət, əlavələr, 188; Həmçinin bax: Bartold 1962: 3:5-7

[xlviii] Gülşəni, 93.

[xlix] Əlişir, 204.

[l] Həmçinin bax: Abbasi, 153, 155

[li] Quzide Zeyli, 33; müqayisə Zubdat, 47b: “…Muğul ra dər şəhr nişastan qa’ida nist və xələf-i yasaq-i Çingizxan əst.”

[lii]Yazıçıoğlu A: 17a”…Olmasın ki, oturak olasız ki, beylik Türkmenlik və yörüklük edenlerde kalur.”

[liii] Əmini, 24-25, 413-414, 419-422; bax APC C; Farmans 27-30 və Papazyan B:10, 454-456

[liv] Gülşəni, 108, 151.

[lv]İbn Aca yazır ki, bu vəzifə Məmlük dövlətindəki gizli katib (katib əl-sirr) vəzifəsinə uyğun gəlir (Yaşbək, 116).

[lvi] Ağqoyunlu bürokratik aparatı üzrə heç bir sorğu kitabçası mövcud deyil, buradakı nəticələr əsasən müasir

təsviri mənbələrin, Minorskinin 1940-cı ildə nəşr edilmiş əsərindəki şərhlərin və Minorskinin Təzkirətə verdiyi şərhlər və əlavələrin müqayisəli təhlili əsasında formalaşmışdır. Həmçinin bax: Uzunçarşılı 1941: 286-312 və 1969: 205-208.

[lvii] Ola bilsin ki, inzibati idarə rəisi ilə baş komandan vəzifəsini eyni adam icra edirdi. Səfəvilər dövründə divanbəyinin hüquqi funksiyalarını nəzərə al (Təzkirət, 20b-22b, tərcümə 50-51).

[lviii] Uzunçarşılı 1941: 295 bu vəzifəni Osmanlıların *nişançı* və *təhrir əmini* vəzifəsi ilə müqayisə et. Gülşəni, 28, əlavə olaraq *padşahın pərvanəsini* sadəcə olaraq *padşahın möhürlü təzkirəsi* (yəni hökmdar tərəfindən möhürlənən istənilən sənəd) kimi qəbul et.

[lix] TMEN 1: 355-357

[lx]TMEN 1:277-279, 2:301-307. Diyarbəkirdə (s. 353) yazılır ki, *bukavullar* da köçəri hərbi elitadan sədaqət andı alırdılar.

[lxi] Məsələn, Siyasət A:94ff, B:74ff; TKS E 5469a, Qorqud A:1:117120; TKS E 3067, Feridun, 1:153/Asnad A:181; Əmini, 235-237 (həmçinin bax: Oben 1971: 11-12, qeyd 6); Anonim Suriya, 1i.

[lxii] Yaşbək, 105: "…va daxaltu alayhi (Uzun Həsən) va indahu cama'atun min əhl əl-'ilm və əl-tuccar əl-varidin alayhi min sa'ir əl-əqəlim.

[lxiii] Rövzat, 1: 476-477

[lxiv] Rövzat, 1:89-91; Rəşahat, 263; TKS E 5649.

[lxv] Rövzat, 1: 476-477

[lxvi] Diyar, 63, 92, 185 və xüsusilə, 401; Əmini, 127, 173, 229, 253, 375, 432.

[lxvii] Müqayisə üçün bax Gülşəni 32-35-ci səhifələrdə yazır

ki, Simnan və Şirazın əhalisi Uzun Həsənin oğullarının zülmünü aradan qaldırmağa çalışır.

[lxviii] Ərzincan, Təbriz və Şiraz kimi böyük ticarət mərkəzlərində vəzifə tutmaq olduqca əlverişli idi (Qanunlar, 182-183; Romano A:447, B:173, Qiyasiyə A:38, B:317)

[lxix]Hodgson 1974:2, 64ff, 91ff. Mühüm fərq üçün bax: Oben 1956 və Blokun 1974-cü ildə Avropada paralel olaraq nəşr edilmiş monoqrafiyası.

[lxx] Yınanc 1940: 263

[lxxi]İnalcık 1959b:93-94, 1993:60; İnalcık 1959b: 81, 82-85, 1993: 49-52

[lxxii]Kern 1954: 13-15 və 26-cı qeyd (Anhang A, 248-249); İnalcık 1959b: 82ff., 1993:49ff.; Goody 1966: 13, 14, 24-29, 35-36.

[lxxiii]Kern 1954: 35-36; Erbteilung , Apanagierung; Toqan 1946:277-293, 456-461; İnalcık 1959b: 81, 82-85, 1993: 49-52; ülüş sistemi; Dikson 1963: hər yerdə; Həmçinin bax: TMEN, 2:120-12. Əyyubilər dövlətində bu sistemlə bağlı bax: Humphreys 1977.

[lxxiv] Goody 1966:2-3

[lxxv] Pritsak 1954 və Grignaschi 1970.

[lxxvi]Türklər arasında xarizmatik hökmdar anlayışının ilahi mənşəyi haqqında bax: Turan 1955: 78-82; Roux 1959; və İnalcık 1959b:73-92; Kernin 1954-cü il nəşrində s. 16-18-lə müqayisə et.

[lxxvii] Bu terminlə bağlı bax: Radloff 1891:1:liiiliv (neue Geschlechtsname); və Dikson 1963: hər yerdə. Bu monoqrafiyada "i" sonluğu şəcərə xətti və xanədan və ya sülaləni göstərmək üçün istifadə edilib. Diksonun "tayfanın yeni banisi" əvəzinə "hakimiyyət" sözü istifadə olunub (məsələn, Qara Osmanilərin

hakimiyyəti); “yardımçı” sözü isə Diksonun “əmiuşaqları” sözünün əvəzində işlədilir.

[lxxviii] Goody 1966: 35-36